# Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının vacib rolu vardır

(Əvvəli 3-cü səhifədə).

zimləyir.

Ümumilikdə isə Məcəllənin 2.7, 17.3, 22.7, 27.2, 33.2, 38.2, 46.5, 47.10, 68.5, 70.4, 88.6, 88.8, 89.4, 97.5.5, 98.3, 98.3, 99.7, 100.9, 101.1, 111.3, 115, 129.3, 151, 185.2, 190.4, 219-cu maddələrində seçki münasibətləri subyektləri (seçki komissiyalarının üzvləri, namizədlər, seçicilər və sair) tərəfindən seçki hüquqpozmalarının törədilməsinə görə məsuliyyət nəzərdə tutan müddəalar öz əksini tapmışdır.

Məcəllənin 60.6-cı maddəsinin tələblərinə uyğun olaraq namizədin hərəkətlərində cinayət məsuliyyətinə və ya inzibati məsuliyyətə səbəb olan hüquq pozuntusu əlamətləri aşkar edildikdə seçki komissiyası Məcəllənin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları hüquq-mühafizə orqanlarına göndərir.

Həmin Məcəllənin 115-ci maddəsinə əsasən vətəndaşların seçki hüquqlarının pozulmasına görə məsuliyyətə aşağıdakı şəxslər cəlb edilə bilərlər:

-zor tətbiqi ilə, aldatma, hədə ilə vətəndaşın seçmək və seçilmək hüququna mane olanlar;

-seçilmək məqsədi ilə özünün vəzifə və ya xidməti mövqeyindən imtiyaz kimi istifadə edənlər;

-namizədin lehinə imza atmağa vətəndaşları məcbur edən və ya namizədin müdafiəsi üçün imza yığılmasına mane olan və ya bu imzaların saxtalaşdırılmasında iştirak edən şəxslər;

-seçiciləri ələ alanlar, yəni bu Məcəllənin 88.6-cı maddəsi ilə qadağan edilmiş hərəkətləri edənlər;

-qeydə alınmış seçicilər barəsində məlumatları vaxtında rəsmiləşdirməyənlər və dəqiqlənşdirməyənlər;

- namizədlər barəsində bilərəkdən yalan məlumatlar yayanlar və ya namizədlərin şərəf və ləyaqətini təhqir edən digər hərəkətləri edənlər (bu müddəa Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş söz və fikir azadlığının məhdudlaşdırılması üçün əsas ola bilməz);

-seçki komissiyaları üzvlərinin, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələri nümayəndəlrinin hüquqlarını pozanlar, o cümlədən seçki sənədlərinin sürətlərinin və məlumatların vaxtında alınması və seçki sənədlərinin sürətlərini təsdiqi ilə bağlı hüquqlarını pozanlar;

-seçkiqabağı təşviqat aparılması qaydalarını pozanlar, o cümlədən səsvermə gününə bir gün qalmış və ya səsvermə günü təşviqat aparan şəxslər:

-məcəllənin müəyyən etdiyi qaydaların pozulmasına səbəb olan kommersiya va digər reklamları hazırlayanlar və yayanlar, yaxud xeyriyyə xidmətləri göstərənlər;

-seçki kompaniyasının maliyyələşdirilməsinin məcəllə ilə müəyyənləşdirilmiş qaydalarını pozanlar;

-seçki bülletenlərinin qalıqlarını gizlədənlər və ya seçki komissiyasının qeydə almadığı seçki bülletenlərinin, səsvermə vərəqələrinin əlavə tirajını hazırlayanlar;

-seçki komissiyasının işinə mane olanlar və ya seçki komissiyası üzvlərinin öz vəzifələrini yerinə yetirilməsi ilə bağlı fəaliyyətinə qeyri-qanuni müdaxilə edənlər;

-seçki məntəqələrində səsverməyə mane olanlar;

-səsvermənin gizliliyini pozanlar;

-seçiciləri öz iradələrinə zidd səs verməyə məcbur edənlər;

-seçki sənədlərini saxtalaşdıranlar, saxta sənədlər tərtib və təqdim edənlər (seçki qutularına bir şəxs tərəfindən birdən çox seçki bülleteni salmaq halları da daxil olmaqla), səsləri bilərəkdən qeyri-düzgün hesablayanlar və ya seçkinin yekunlarını bilərəkdən təqdim və ya dərc etməyənlər;

-vətəndaşların seçiçi siyahıları ilə tanış olmaq hüququnu pozanlar;

-vətəndaşlara başqa şəxslərin əvəzinə səs vermək imkanı yaratmaq məqsədi ilə seçki bülleteni verənlər və ya birdən artıq seçki bülleteni alınmasına imkan yaradanlar;

-seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış vəsaitin xərçlənməsi hesabatlarını, namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının maliyyə hesabatlarını təqdim və dərc etməyənlər;

-Məcəllədə nəzərdə tutulmuş hallarda seçkilərdə iştirak etmək üçün məzuniyyət verməyən işəgötürənlər;

-seçki komissiyalarının bu məcəllənin pozulması ilə bağlı verdiyi məlumatları yoxlamayan dövlət orqanlarının vəzifəli şəxsləri.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin normalarına əsasən vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar olan aşağıdakı hərəkətlər cinayət məsuliyyətinə səbəb olur:

-seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma (159-cu maddə),

-seçkilərdə (referendumda) iştirak qaydalarını pozma (159-1-ci maddə),

-seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə (160-cı maddə),

-seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma (161-ci maddə)

-seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə (308.2-ci maddə).

Cinayət-Prosessual Məcəllənin 215.3.1-ci maddəsinə əsasən həmin maddələrin istintaq aidiyyəti prokurorluq orqanlarına aid edilmişdir.

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar dairə seçki komissiyalarının sədrləri üçün keçirilən geniş müşavirədəki çıxışında Baş prokurorun birinci müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubov qeyd olunan müddəalara istinadən prokurorluq orqanlarının seçki prosesinə xüsusi həssaslıqla yanaşdığını, bu məsələdə Mərkəzi Seçki Komissiyası ilə sıx əlaqədə çalışdığını diqqətə çatdırmışdır.

**Məqsəd ORUCOV,**
**Qəbələ rayon prokuroru,**
**Baş ədliyyə müşaviri.**

# Toplantı keçirilmişdir

***Azərbaycan Respublikasında keçiriləcək parlament seçkiləri ilə əlaqədar Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə “Sənin səsin - sənin gələcəyin” devizi altında ilk dəfə səs verəcək seçicilərlə toplantı keçirililmişdir.***




Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində təşkil olunan maarifləndirici toplantıda 50 nəfər 18 yaşı tamam olmuş ilk dəfə səs verəcək gənc iştirak etmişdir.

Toplantıda dövlət peşə təhsili mərkəzinin direktor müavini Camal Rəsulov və rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov tədbir iştirakçılarına gənclərin seçkilərdə aktiv iştirakının təmin edilməsi istiqamətində hüquqi biliklərinin artırılması ilə bağlı məlumat vermişlər.

Tədbirdə ilk dəfə səs verəcək gənclərin nümayəndələri çıxış etmişlər.

**Rais RƏŞİDOV,**
**Səhrab Umuyev (foto).**
**“Qəbələ”**

# Gənclərin yaradıcılıq festivalı başa çatıb

***Azərbaycan Gənclər Fondunun dəstəyi ilə “Nəsimi ili”nə həsr olunmuş gənclərin “Mən bu cahana sığmazam” adlı yaradıcılıq festivalı başa çatıb.***

Festival çərçivəsində Qəbələ şəhərində gənclər üçün düşərgə təşkil edilib. Düşərgəyə Nəsimi festivalında uğurlu nəticə göstərən 20 istedadlı gənc qatılıb. Burada təcrübəli təlimçilər tərəfindən gənclərə “Uğur formulu”, “Effektiv bilik əldəetmə metodları”, “Kitab oxumağın üstünlükləri”, “Niyə kitab oxumalıyıq”, “Zamanın və həyatın idarə edilməsi” mövzularında təlimlər, eləcə də interaktiv oyunlar, bi-



lik yarışları, qrup işləri təşkil edilib.

Festival iştirakçıları Qəbələ Arxeoloji Mərkəzinə, Nic qəsəbəsindəki Azərbaycan Udi Ocağına və Alban məbədinə ekskursiya ediblər.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**“Qəbələ”**

# İbrahim bəy Musabəyovun yaradıcılığına həsr olunmuş gecə

İsmayıl bəy Qutqaşınlının ev muzeyində görkəmli yazıcı İbrahim bəy Musabəyovun yaradıcılığına həsr edilmiş tədbir kecrilib.

Tədbirdə Qəbələ Mədəniyyət Mərkəzinin mədəni təşkilatcısı Günay Kərimova İbrahim bəy Musabəyovun yaradıcılığı haqqında geniş məlumat verib. Natiq bildirib ki, İbrahim bəy Musabəyovun “Neft və milyonlar səltənətində” povesti 1916-cı ildə kinorejissor Boris Svetlov tərəfindən ekranlaşdırılıb. Ağ və qara rəngdə cəkilən ilk səssiz film kimi, Azərbaycanın kino tarixinə adı düşən bu melodramda məşhur aktyor Hüseyin Ərəblinski Lütvəli bəy obrazını cox böyük ustalıqla yaradıb.

Daha sonra mərkəzin əməkdaşlarından Nərgiz Həmidova, Şahnaz Yusifova və başqaları İbrahim bəy Musabəyovun yaradıcılığının ayrı-ayrı sahələri haqqında ətraflı fikir mübadiləsi aparıblar.

Sonda tədbir iştirakcıları xatirə şəkilləri cəkdiriblər.

**Azər AZAYEV,**
**mərkəzin işçisi.**

# Qəbələ ilin bütün fəsillərində turistlərin diqqətini cəlb edir

***Son illər Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına, makroiqtisadi göstəricilərin davamlı artmasına səbəb olub. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı vardır. Azərbaycanın coğrafi mövqeyi, təbiəti, iqli-***



***mi, tarixi abidələri, mətbəxi, xalqımızın zəngin mədəniyyəti və digər amillər turistlərin Azərbaycana böyük axınla səfər etməsinə geniş yol açıb.***



Geniş turizm infrastrukturuna malik olan Qəbələnin otel və mehmanxana tipli müəssisələrinə 2019-cu ilin 11 ayında 172 min 818 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 58 min 371-i və ya 33,8 faizi Azərbaycan, 114 min 447-si və ya 66,2 faizi xarici ölkə vətəndaşı olub. On bir ayda Qəbələyə gələn əcnəbi turistlər arasında Səudiyyə Ərəbistanının vətəndaşları üstünlük təşkil edib. Ötən müddətdə bu ölkənin 34 min 184 nəfər vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, on bir ayda Qəbələnin otel və mehmanxanalarında Birləşmiş Ərəb Əmirliyi, Küveyt, Bəhreyn, Qətər, Oman, Rusiya, Hindistan, Çin və İraqdan olan turistlər üstünlük təşkil ediblər.

**«Qəbələ»**